

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 169 (20.823)

11 sentyabr 2013-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Yevlax rayonuna səfərə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Yevlax Hava Limanının, Yevlax Şəhər Mərkəzi Xəstəxanasının, Bakı-Qazax magistralı-Səmədabad-Qaraməmmədli-Qaramanlı-Göyük avtomobil yolunun açılışlarında iştirak etmişdir.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Bərdədə 866 məcburi köçkün ailəsi üçün yeni salınan beşmərtəbəli 15 yaşayış binasından ibarət məhəllə ilə tanış olmuşdur.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalan şəhərinə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Naftalanda Heydər Əliyev Mərkəzinin açılışında, Naftalan şəhərinə içməli suyun verilməsi mərasimində iştirak etmiş, "Qarabağ" sanatoriyasında tikinti işlərinin gedişi ilə tanış olmuşdur.

* * *

Sentyabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gədəbəy rayonuna səfərə gəlmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 10-da Gədəbəy Aşıq Musiqisi Məktəbinin, Çolpan çayı üzərindəki körpünün, "Azerbaijan International Mining Company Limited" şirkətinin yeni zavodunun açılışlarında iştirak etmiş, "Halal Qida" süd emalı zavodu və tərəvəz məhsullarının tədarükü, saxlanılması və satışı kompleksi ilə tanış olmuşdur.

## 7 saylı Ordubad-Culfa Seçki Dairəsi prezident seçkilərinə tam hazırdır

Ötən hər gün bizi ölkəmizin həyatında mühüm siyasi hadisə olan 9 oktyabr prezident seçkilərinə yaxınlaşdırır. Muxtar respublikanın ayrı-ayrı bölgələrində olduğu kimi, Ordubad və Culfa rayonlarında da bu siyasi kampaniyaya ciddi hazırlıq işləri görülür. 7 saylı Ordubad-Culfa Seçki Dairəsi dairə seçki komissiyasının sədri Həsən Həsənova söhbət zamanı bildirdi ki, seçkilərin şəffaflığının və obyektivliyinin təmin olunmasında məntəqə seçki komissiyaları mühüm rol oynayır. Bu, nəzərə alınaraq həmin komissiyalara normal iş şəraiti yaradılıb. Məntəqə seçki komissiyalarının üzvləri arasında vəzifə bölgüsü aparılıb, növbətçilik qrafiki tərtib olunub. Seçiciləri məlumatlandırmaq üçün məntəqələrdə guşə yaradılıb. Burada seçkilərlə bağlı mühüm dövlət sənədləri özünə yer alıb.

Komissiya sədri bildirdi ki, dairə üzrə yaradılmış 48 məntəqə seçki komissiyasının 41-i Ordubad, 7-si Culfa rayonu ərazisindədir. Artıq məntəqələr üzrə seçici siyahıları dəqiqləşdirilib. Səsvermə məntəqələrinin 24-ü yeni tikilmiş binalarda yerləşdirilib. Digər məntəqələr üçün müəyyən olunmuş yerlərdə əsaslı təmir işləri aparılıb, elektrik və telefon xətləri çəkilib. Bütün seçki məntəqələri seçkiyə çağırış şüarları, Seçki Məcəlləsi, təlimatlar, təqvim planı, səsvermə kabinələri, daşınan və daşınmaz seçki qutuları, ünvan lövhələri, inventarlar və digər seçki ləvazimatları ilə təmin ediliblər.

Həsən Həsənov onu da vurğuladı ki, seçki hüququ üzrə Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasında və Ordubad rayonunda yığıncaqlar keçirilib, bu yığıncaqlarda Seçki Məcəlləsinin müxtəlif maddələri barədə maarifləndirici söhbətlər aparılıb, seçki komissiyası üzvlərinin sualları cavablandırılıb.

Öyrəndik ki, bu il dairə üzrə prezident seçkilərində iştirak edəcək seçicilərin ümumi sayı 33 min 309 nəfərdir. Əvvəlki seçkilərlə müqayisədə növbəti prezident seçkisində ilk dəfə səs verənlərin sayı artaraq 2424 nəfərə çatıb. Səsvermədə 4 nəfər 100 yaşdan yuxarı seçici iştirak edəcək.

Bu günədək görülən işlər belə qənaətə gəlməyə əsas verir ki, 7 saylı Ordubad-Culfa Seçki Dairəsi və onun tərkibində olan məntəqələr növbəti prezident seçkisini yüksək mütəşəkkilliklə keçirəcək.

## Biznes Mərkəzində görüş keçirilib



*Sentyabrın 10-da Türkiyənin Şimal-Şərqi Anadolu İnkişaf Agentliyinin təmsilçiləri ilə Naxçıvan Biznes Mərkəzində görüş keçirilib. Türkiyənin Ərzurum, Ərzincan və Bayburt bölgələrinin tarixi və mədəni dəyərlərinin təbliğində, eyni zamanda turizm, iqtisadiyyat və digər sektorların inkişafında mühüm rol oynayan agentliyin nümayəndələri mərkəzdə yerli məhsullardan ibarət sərgi ilə tanış olublar. Qonaqlara muxtar respublikada istehsal edilən məhsullar haqqında ətraflı məlumat verilib.*

Sonra keçirilən görüşdə qardaş Türkiyə və Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasındakı mədəni və iqtisadi əlaqələrdən söhbət açılıb. Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulu Cenk Ünal son illər mühüm nailiyyətlər əldə edən Naxçıvan Muxtar Respublikasının sürətli inkişafından danışıb, dostluq və qardaşlıq təməli üzərində qurulan münasibətlərin daha da dərinləşdirilməsinin zəruriliyindən bəhs edib.

Naxçıvan Muxtar Respublikası İqtisadi İnkişaf Nazirliyinin Dövlət investisiya və xarici əlaqələr şöbəsinin müdiri Emin Zeynalov çıxış edərək Naxçıvan Muxtar Respublikasının iqtisadi potensialı haqqında məlumat verib, investisiyalar üçün münbit şərait yaradıldığını qeyd edib. Təhsil, səhiyyə, turizm, iqtisadiyyat və digər sahələrdə qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsi üçün kifayət qədər imkanların olduğunu deyən şöbə müdiri dövlətin bu sahələrin qarşılıqlı inkişafında maraqlı olduğunu vurğulayıb.

Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin Turizm şöbəsinin müdiri Gülbuta Babayeva regionun turizm potensialından danışıb, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib.

Tədbirdə Şimal-Şərqi Anadolu İnkişaf Agentliyinin fəaliyyət göstərdiyi bölgələrin tarixi, mədəni və turizm ərazilərini özündə əks etdirən videoslaydlar nümayiş etdirilib, qarşılıqlı görüş və səfərlərin davamlı olacağına əminlik ifadə olunub.

Sonra qonaqlar Naxçıvan şəhəri ilə tanışlıq üçün gəzintiyə çıxıblar.

## Dövlət Miqrasiya Xidməti yeni binada fəaliyyət göstərəcək

*Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidməti üçün Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni bina inşa edilir.*

"Gəmiqaya" Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən ucaldılan zirzəmi ilə birlikdə altı mərtəbədən ibarət binada əsas işlər başa çatdırılıb. Binanın son mərtəbəsi mansardtiplidir. Ötən ildən etibarən inşasına başlanan binada hazırda arakəsmələrin hörgüsü, suvaq işləri aparılır, kommunikasiya xətlərinin çəkilişi gedir. Obyektə çox sayda texnika və işçi qüvvəsi cəlb edilib. Binanın inşasında yüksəkkeyfiyyətli yerli inşaat materiallarından istifadə olunur, obyektin vaxtında təhvil verilməsi üçün səy göstərilir.



**Xəbərlər şöbəsi**

*"Bu ilin ilk 7 ayında İSO beynəlxalq idarəetmə sistemlərinin tətbiqi ilə əlaqədar müəssisələrdə maarifləndirmə və hazırlıq işləri aparılıb, 2 müəssisəyə Almaniyanın DQS Şirkəti tərəfindən İSO 9001 beynəlxalq idarəetmə sertifikatı verilib". Bu məlumat qəzetimizə Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən daxil olub.*

## Standartlara uyğun olmayan məhsulların satışının qarşısı alınıb

Məlumatda o da bildirilir ki, bəhs olunan dövrdə komitə tərəfindən 324 təsərrüfat subyektinə standartların tələbləri barədə maarifləndirici məktublar göndərilib. Ticarət obyektlərindən 138 min 594,4 manat dəyərində standartın tələblərinə uyğun olmayan, yararlılıq müddəti bitmiş məhsul aşkar edilərək satışının qarşısı alınıb. 3312 manat dəyərində məhsul istehsalçı müəssisəyə geri göndərilib, 4906 manat dəyərində məhsul yem məqsədilə hərbi hissə və təsərrüfatlara təhvil verilib. 54 min 990 manatlıq spirtli içkinin satışına qadağa qoyulub, 52 min 965 manatlıq eyniadlı məhsul isə istehsalçı müəssisəyə geri göndərilib.

İdxal olunan malların etiketlərində və adlarında istehlakçılar üçün nəzərdə tutulmuş Azərbaycan dilində zəruri məlumatların olmasına nəzarət edilməsi, genidəyişdirilmiş və ya genetik modifikasiya olunmuş məhsulların, eləcə də süni ət məhsullarının muxtar respublikaya idxalının və satışının qarşısının alınması üçün 14 topdansatış obyektinin rəhbərinin iştirakı ilə maarifləndirici yığıncaq keçirilib. Süni ət məhsullarının idxalının və satışının qarşısının alınması barədə verilmiş tapşırığın icrası ilə bağlı aparılan araşdırmalar zamanı 21 adda süni qida məhsulları aşkar edilib. Bunlardan 8 adda süni məhsulların siyahısı muxtar respublikaya idxalının qarşısının alınması üçün nümunələri ilə birlikdə aidiyyəti orqana göndərilib.

Bundan başqa, 161 təsərrüfat subyektində istehlakçının seçmə sərbəstliyinə təsir göstərən qanunsuz reklam üsullarından istifadə halları aşkar olunduğundan qarşısı alınıb. İdxal olunan 61,8 kiloqram (361 manat dəyərində) "Halal" adı ilə markalanmış saxta əmtəə nişanı altında ət məhsullarının satışına qadağa qoyulub. 97 təsərrüfat subyektinə özünəməxsus əmtəə (xidmət) nişanının qeydiyyata alınması barədə məlumatxarakterli məktub göndərilib. İdxal olunan tikinti materiallarına 579, istehsal olunan tikinti materiallarına 204, maşın-mexanizm və avadanlıqlara 72 ədəd olmaqla, 855 uyğunluq sertifikatı verilib, 6 müəssisədaxili laboratoriya akkreditasiya olunub.

Yerlərdə elektrik və qaz sayğaclarının standartlara uyğunluğunun yoxlanması və plomblanması ilə bağlı 8437 ədədi elektrik, 12 min 866 ədədi isə qaz sayğacı olmaqla, 21 min 303 ədəd sayğac plomblanıb. Bunların 251 ədədi dövlət və ya özəl müəssisələrin, 21 min 52 ədədi isə yaşayış mənzillərinin payına düşür. İxracyönümlü müəssisələrdə müasir standartlara uyğun şəraitin yaradılması və istehsal prosesinin qabaqcıl texnologiyalar əsasında təşkili məqsədilə muxtar respublikaya idxal olunan 43 avadanlıq sertifikatlaşdırılıb.

**Səbuhi HÜSEYNOV**

## Ali təhsil ocağında yeni təlim kursu

Naxçıvan Dövlət Universitetində Azərbaycan Hökuməti və Beynəlxalq İnkişaf Assosiasiyasının birgə həyata keçirdiyi "Dövlət investisiyaları üzrə kadr potensialının gücləndirilməsi" layihəsi çərçivəsində növbəti təlim kursuna başlanmışdır. Layihənin idarə edilməsinə həsr olunmuş təlim kursunun məqsədi layihənin uğurla idarə olunması üzrə beynəlxalq səviyyədə qəbul edilmiş yanaşma və prosedurları mənimsətməkdir. Təlim kursunun ilk məşğələsində çıxış edən ekspert-təlimçi Elşən Rəhimov beş gün davam edəcək kursda layihənin idarə edilməsinin əsasları, layihənin məqsədyönlü hazırlanması, düzgün planlaşdırılması, risk intervalı və risklərin azaldılması, layihə menecerinin rolu və digər məsələlərin öyrədiləcəyini bildirmişdir. Təlim kursunda müxtəlif dövlət strukturlarında çalışan mütəxəssislər, eləcə də universitetin müvafiq ixtisaslar üzrə müəllim və tələbələrdən ibarət bir qrupu iştirak edir.

Qeyd edək ki, təlim iştirakçılarına sonda sertifikatlar təqdim olunacaq.

**Mehriban SULTAN**

# Dövlət qayğısı Qarxun kəndinin simasını dəyişib

*İnsana qayğı olan yerdə...*

İnsana qayğı göstərilən, onun yaxşı yaşayışı diqqət mərkəzində saxlanılan məmləkətlərdə həmişə inkişaf və tərəqqi olub. Blokada şəraitində yaşayan Naxçıvanda inkişafa nail olmağın çətinlikləri birəbeş qat artıq olsa da, inkişaf faktı faktlığında qalır. Təbii ki, bütün bunlar hər bir naxçıvanlı üçün qürur mənbəyinə çevrilib. Bu torpağın yurdsevər insanları inkişaf və tərəqqinin ön sıralarında getməyi, bu prosesə töhfə verməyi özlərinin vətəndaşlıq borcu sayırlar.

Muxtar respublikamızın qovuşduğu bu firavan günləri Şərur rayonunun Qarxun kəndinin də timsalında aydın görmək olar. 605 təsərrüfatı, 2130 sakini olan Qarxun Şərur şəhərindən 2 kilometr aralıda yerləşir. Son illər bu yaşayış məntəqəsində aparılan kompleks quruculuq tədbirləri kəndə müasir görkəm verib.

2008-ci ildə ikimərtəbəli kənd mərkəzi inşa olunub. Burada kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik, bələdiyyə, Yeni Azərbaycan Partiyası ərazi ilk təşkilatı, polis sahə və baytarlıq məntəqələri üçün müasir tələblər səviyyəsində iş şəraiti yaradılıb. Rabitə evində poçt bölməsi fəaliyyət göstərir, 300 nömrətutumlu ATS üçün otaq ayrılıb. Binanın ərazisində yaşıllıq zolağı və gülkarlıq salınıb, 1941-1945-ci illər müharibəsində həlak olanların xatirəsinə abidə ucaldılıb, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin büstünün ətrafı abadlaşdırılıb.

Qarxunda eyni vaxtda tikilib istifadəyə verilən ikimərtəbəli həkim ambulatoriyası da sakinlərin ürəyincədir. 12 nəfərin çalışdığı ambulatoriyada əhaliyə nümunəvi səhiyyə xidməti göstərmək üçün hərtərəfli şərait var. Ambulatoriya lazımi tibbi avadanlıqlarla, dərman preparatları ilə təchiz edilib.

Kənddə bir neçə emal və istehsal müəssisəsi fəaliyyət göstərir. Sahibkarlığın inkişafına göstərilən qayğı kənd adamlarının məşğulluq problemlərinin həllinə yaşıl işıq yandırıb. Belə ki, kənddə fəaliyyət göstərən 2 un dəyirmanında 16 nəfər çalışır. Üç çörək sexində isə 18 qarxunlu özünə daimi iş yeri tapıb. Fəaliyyət göstərən qum-çınqıl emalı karxanasında isə işləyənlərin sayı 20 nəfərdən artıqdır.

Axşamlar uzaqdan baxanda kəndin sayrışan işıqları göz oxşayır. Bütün evlərdə mavi qaz şölələnir. İçməli su təchizatında da heç bir problem yoxdur. 19 subartezian quyusundan bütün evlərə su xətti çəkilib.

İnkişafın əsas göstəricilərindən biri də müasir yol şəbəkəsinin yaradılmasıdır. Yol çəkmək, körpü salmaq xeyirxah işdir. Kəndi Naxçıvan-Sədərək avtomagistralı ilə birləşdirən yolun uzunluğu 4,5 kilometrdir. Ötən il ərazidə genişmiqyaslı quruculuq işləri davam etdirilərkən bu yol da yenidən qurulub. Yol yatağı genişləndirilib, asfalt örtük salınıb, müxtəlif hissələrdə 19 su keçidi qoyulub, yol kənarlarında 320 metr yeni hasar çəkilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yolun açılış mərasimində kənd sakinlərini təbrik edərək demişdir: ***"Əvvəlki illərdə bu kənddə yeni kənd mərkəzi, həkim ambulatoriyası, ticarət mərkəzi tikilərək sakinlərin istifadəsinə verilmişdir. Bu gün isə yeni məktəb binası, kənd yolu və xidmət mərkəzi istifadəyə verilir. Aparılan kompleks quruculuq işlərindən sonra Qarxun kəndi bu gün muxtar respublikanın kompleks abadlaşan kəndlərinin sırasına daxil olur".***


*Qarxun kənd tam orta məktəbi*

Təbii ki, kəndin ən böyük sərvəti onun insanlarıdır. Görülən bütün bu işlər, əzəmətli tikinti-quruculuq tədbirləri onların sosial rifahının daha da yaxşılaşdırılmasına xidmət edir. İnsana qayğı olan yerdə firavan həyat bərqərar olur. Burada yaşamaq da gözəldir, işləmək də.

*Kəndin mədəni həyatı*

Qarxunda əhalinin asudə vaxtının səmərəli təşkilində kənd mərkəzində fəaliyyət göstərən kitabxana və mədəniyyət evinin üzərinə mühüm vəzifələr düşür. Qeyd edək ki, kənd camaatı kitabxananın fondunda olan 4 min kitabdan istifadə edir. Bunlardan 2000 ədədi ölkə Prezidentinin qayğı və diqqəti nəticəsində latın qrafikası ilə çap olunmuş kitablardır. Mədəniyyət evinin fəaliyyətindən də razılıqla danışmaq olar. Burada mədəni-kütləvi tədbirlər təşkil olunur, kənd adamlarının boş vaxtlarının səmərəli keçirilməsi diqqətdə saxlanılır.

Ötən il kənddə ucaldılan zirzəmi ilə birlikdə üçmərtəbəli tam orta məktəb binası da yeni quruculuq ərməğanlardandır. 2011-2012-ci dərs ilində "Ən yaxşı ümumtəhsil məktəbi" müsabiqəsinin qalibi olan Qarxun kənd tam orta məktəbi muxtar respublikanın qabaqcıl təhsil ocaqlarından sayılır. 504 şagird yerlik məktəb binasında gələcək perspektiv də nəzərə alınaraq üçü elektron lövhəli olmaqla, 28 sinif otağı, kimya, biologiya, fizika laboratoriyaları, hərbi kabinə, idman zalı yaradılıb. Kompüter siniflərində 38 kompüter quraşdırılıb və internetə çıxışı təmin olunub. Məktəbin kitabxana fonduna 6 min 652 latın qrafikalı dərslik və 4 min 907 bədii ədəbiyyat olmaqla, 12 minə yaxın kitab verilib. Yaxşı hal kimi onu qeyd edək ki, indi ali təhsilini bitirən qarxunlu gənclər öz yurdlarına qayıdır, müəllimləri ilə çiyin-çiyinə çalışırlar. Belə pedaqoqlardan Könül Vəlizadə, Məhsəti Vəliyeva, Cəmilə və Nahidə Qənbərovaları və digərlərini misal göstərmək olar. Burada tədrisin səviyyəsinə gəldikdə deyə bilərik ki, bu təhsil ocağında bütün ixtisaslar üzrə təcrübəli müəllimlərin olması dərslərin keyfiyyətinə öz təsirini göstərir. Yaradılan hərtərəfli şəraitdən istifadə edən pedaqoji kollektiv uğurlarını ilbəil artırır. Məktəbin direktoru Elman Muradov bildirdi ki, məktəblərinin "Ən yaxşı ümumtəhsil məktəbi" adına layiq görülməsi bu uğurlara verilən böyük qiymətdir və məktəbin pedaqoji kollektivini daha yüksək nəticələr qazanmağa ruhlandırıb. Ümumiyyətlə, məktəb zəngin təhsil ənənələrinə malikdir. Həmin ənənələr bu gün də davam etdirilir. 2012-2013-cü dərs ilində də nailiyyətlər yüksək olub, 25 məzundan 11-i ali məktəblərə, ikisi orta ixtisas məktəblərinə, doqquzuncu sinif təhsil bazasından isə daha 2 şagird texnikuma, 1 nəfər Heydər Əliyev adına Hərbi Liseyə qəbul olunub.


*Qarxun kəndində xidmət mərkəzi*


*Qarxun avtomobil yolu*

*Torpağın səxavəti*

Qarxuna göstərilən bu qayğılar kənd adamlarının təsərrüfat həyatında qazandıqları uğurların başlıca səbəbidir. Bunun daim artdığını görən torpaq mülkiyyətçiləri özlərinə yaxşı gün-güzəran qurublar.

Kəndin icra nümayəndəsi Nəsir Məmmədov bildirdi ki, aqrar islahatlar zamanı əhalinin xüsusi mülkiyyətinə 197 hektar torpaq sahəsi verilib. Bu torpaqlarda əkinçiliyin müxtəlif sahələri inkişaf etdirilir. Kəndin torpaq adamları onlar üçün yaradılan şəraitdən, müntəzəm olaraq göstərilən dövlət qayğısından bəhrələnərək əkin sahələrindən bol məhsul əldə etməyə çalışırlar. Məhsul bolluğu isə xoş, firavan həyatın və əhalinin rifah halının yaxşılaşmasına təminat verir. Rayonun digər yaşayış məntəqələrində olduğu kimi, bu kənddə də taxılçılıq üçün hər il daha çox sahə ayrılır. Belə ki, ötən ilin payızı və cari ilin yazında 100,5 hektar sahədə taxıl əkini keçirilib. Düzgün aqrotexniki qulluq və meliorasiya tədbirlərinin nəticəsində 350 tondan çox məhsul istehsal edilib. Torpaq mülkiyyətçiləri bilirlər ki, keyfiyyətli və bol taxıl süfrəmizin yerli çörəyə tələbatının ödənilməsi deməkdir. Kənd sakinlərindən Əvəz Vəliyev, Akif Mahmudov, Kamal Zeynalov hektardan 35-40 sentner məhsul götürüblər. Qeyd edək ki, gələn ilin bol məhsulunun əsası da indidən qoyulur. Bunun üçün yüksək reproduksiyalı toxum tədarük olunub, hələlik 50 hektarda şum aparılıb. Torpaq sahibkarları vaxtdan səmərəli istifadə etmək, taxıl səpinini optimal müddətdə başa çatdırmaq əzmindədirlər.

Kənddə ən çox diqqət yetirilən sahələrdən biri də kartofçuluqdur. Bu il Qarxunda 10,5 hektar sahədə kartof əkilib, indiyədək 120 ton məhsul əldə edilib. Bir hektar sahədən 15 ton kartof götürən Yavər Mahmudov bizimlə söhbətində bu sahənin gəlirli olduğunu bildirdi. Dedi ki, torpaq bizim gəlir mənbəyimizdir. Torpağa baş əyməyən adama kəndli demək olmaz. Əsl kənd adamı ona deyərlər ki, təsərrüfatın bütün sahələri ilə məşğul olsun. Nə qədər çox zəhmət çəkərsən, bir o qədər bəhrəsini görərsən.

Qarxunun torpaqları münbitliyi ilə seçilir, məhsuldardır, səxavətlidir. Hələlik, kənddə 405 ton tərəvəz, 52 ton bostan, 18 ton paxlalı, 22 ton dən qarğıdalı və sair məhsullar hasilə gətirilib.

Qarxunluların iqtisadiyyatına gəlir gətirən sahələr sadaladıqlarımızla bitmir. Bu sahələrdən biri də meyvəçilikdir. Kənddə həyətyanı sahələrdən başqa 15,8 hektar pay torpağında da meyvə bağı salınıb. Hər ilin yaz və payız aylarında meyvə bağlarının genişləndirilməsi qayğısına qalınır. Kənd adamları, bağbanlar təkcə bu il Naxçıvan və Şərur şəhərlərində təşkil olunan kənd təsərrüfatı məhsullarının satış yarmarkalarına 230 ton meyvə məhsulları çıxarıblar.

Kənddə heyvandarlığın da inkişafına önəm verilir. Bunun nəticəsidir ki, 432 baş qaramal, 299 baş davar bəslənilir. İsrayıl Mahmudov uzun illərdir ki, maldarlıqla məşğuldur. Zəhmətkeş kənd adamı bu sahədə xeyli təcrübə qazanıb. Beytulla Hüseynəliyevin, Akif Mehdiyevin isə 50-60 qoyun-keçisi var. Bu sahənin zəhmət tələb etdiyini dilə gətirən Beytulla kişi çəkdiyi zəhmətin qarşılıqsız qalmadığını bildirərək dedi ki, heyvandarlığın inkişafı üçün bu gün muxtar respublikamızda məqsədyönlü tədbirlər həyata keçirilir, cins damazlıq mal-qara gətirilir, kreditlər ayrılır, baytarlıq xidmətinin səviyyəsi ildən-ilə yüksəldilir. Belə diqqətin nəticəsidir ki, heyvanların baş sayını artıra bilirik.

Kəndin yaşıl libası burada yaşıllaşdırma tədbirlərinə də diqqətlə yanaşıldığını göstərir. Qeyd edək ki, təkcə bu ilin yaz iməcilikləri dövrü kəndin müxtəlif ərazilərinə mindən artıq meyvə və bəzək ağacı əkilib.

***Arpaçayın sahilində məskən salan bu kəndi qarış-qarış gəzdim, insanları ilə görüşüb söhbət etdim. Qarxunda kənd adamlarının halal zəhmətə bel bağladıqlarının şahidi oldum. Bunun nəticəsini isə onların gün-güzəranında, dolanışığında, həyat tərzində görmək olar. Kəndin sosial inkişafını yeni tikilən və artan yaraşıqlı fərdi yaşayış evlərinin çoxluğu da sübuta yetirir. Təbii ki, bu inkişafı dövlət qayğısı, torpağın səxavəti, kənd adamlarının təsərrüfatın müxtəlif sahələrində qazandığı uğurlar təmin edib. Bir sözlə, Qarxun inkişaf edir, gözəlləşir, daha xoş sabahlara doğru irəliləyir.***

**Cəfər ƏLİYEV**

# Keyfiyyətli məhsul istehsalı, tanıtım və yüksək xidmət

## *Gəmiqaya Holdinqin fəaliyyət devizidir*

**"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının müxtəlif istehsal sahələrində istehsal edilən, "Badamlı", "Bərəkət", "Mirvari" və "Qızıl damla" əmtəə nişanları ilə satışa çıxarılan kaqor, kəmşirin, ağ və qırmızı süfrə şərabları, "Badamlı" təbii mineral süfrə suyu, meyvə nektarları, halva, un, müxtəlif çeşiddə çörək, makaron, ət və süd, eləcə də şirniyyat kimi sənaye məhsulları keyfiyyət göstəriciləri ilə seçilir, alıcılar tərəfindən rəğbətlə qarşılanır. Bu məhsulların lazımi şəraitdə saxlanılması və istehlakçılara keyfiyyətlə çatdırılması mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılmış, 2010-cu ilin mart ayında "Gəmiqaya Bərəkət Bazarlama" Məhdud Məsuliyyətli Cəmiyyəti fəaliyyətə başlamışdır.**

Müəssisənin direktoru Arzu Əliyev söhbətində qeyd etdi ki, Marketinq və Satış şöbələrinin fəaliyyət göstərdiyi müəssisəyə xaricdə təhsil almış və təcrübə keçmiş gənc mütəxəssislər cəlb olunmuşdur. Həmin mütəxəssislər daxili bazarın tələbatını öyrənir, yerli məhsulların tanıdılması məqsədilə təbliğat işləri aparırlar. Qida məhsullarının satış qiymətlərində endirim edilir, daha çox yerli məhsul alan müştərilərə hədiyyələr verilir. Gediş-gəliş çox olan ərazilərdə yerli məhsullardan ibarət səyyar sərgilər təşkil olunur. Xüsusilə isti yay aylarında soyuducu çanta ilə təmin olunmuş şirkətin nümayəndələri tərəfindən parklarda və ictimai nəqliyyatda dequstasiya (daddırma) tədbirləri həyata keçirilir ki, bu, yerli məhsula inamı artırır, nəticədə, qida məhsullarına olan tələbat artır. Həmçinin "Gəmiqaya Bərəkət Bazarlama" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən satışa çıxarılan qida məhsullarının və müəssisədə fəaliyyət göstərən "qaynar xətt" telefon nömrələrinin əks olunduğu lövhələr bütün ticarət obyektlərində alıcıların diqqətini cəlb edən guşələrdə asılmışdır. Yerli qida məhsulları ilə bağlı müəssisəyə daxil olan bütün telefon zəngləri və təkliflər diqqətlə araşdırılır. Qida məhsullarının bütün növlərinin ayrı-ayrılıqda satışına nəzarət olunur. Nəticələr müzakirə edilir, satışında azalma müşahidə olunan sahələr müəyyənləşdirilir və azalmanı doğuran səbəblər aradan qaldırılır.

"Gəmiqaya Holdinq" Şirkətlər İttifaqının qida qrupuna daxil olan sənaye müəssisələrində istehsal edilmiş yerli məhsulların keyfiyyətlə saxlanılması və ticarət obyektlərinə çatdırılmasına da əlverişli şərait yaradılmışdır. Naxçıvan şəhərində qida məhsullarını mənfi 15 dərəcəyədək saxlamaq imkanı olan soyuducu anbar istifadəyə verilmiş, ayrı-ayrı rayonlarda satış bazaları yaradılmışdır. Müəssisənin Naxçıvan şəhərində fəaliyyət göstərən mərkəzi bazasına daxil olan qida məhsulları müəssisənin balansındakı yük avtomobilləri ilə rayon mərkəzlərində yerləşən satış bazalarına daşınıb həftəlik ehtiyat yaradılır. "Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal etdiyi müxtəlif çeşiddə çörəklər isə gündəlik olaraq Naxçıvan şəhərindən, ayrı-ayrı rayon mərkəzlərindən başlayaraq ucqar dağ və sərhəd kəndlərinədək bütün yaşayış məntəqələrində fəaliyyət göstərən ticarət obyektlərinə çatdırılır. Qida məhsullarının müəyyən olunmuş şəraitdə saxlanılması üçün həmin ticarət obyektləri soyuducularla təmin edilmiş, qida məhsullarının soyuducularda saxlanılmasına və düzülüşünə nəzarət məqsədilə xüsusi dizaynerlər qrupu yaradılmışdır.

Müəssisədə fəaliyyət göstərən Satış şöbəsində də xidmət günün tələbləri səviyyəsində qurulmuş, muxtar respublikamızın şəhər və rayonları yerləşdiyi əraziyə uyğun olaraq 3 qrup üzrə komplektləşdirilmişdir. Naxçıvan-Babək-Şahbuz, Kəngərli-Şərur-Sədərək, Ordubad-Culfa bölgələri üzrə ticarət nümayəndələri təyin olunmuşdur ki, onlar da həmin rayonlar üzrə tələbatı öyrənib müəssisəyə sifarişlər verirlər. Qida məhsulları rayon bazaları vasitəsilə bütün ticarət obyektlərinə vaxtında çatdırılır. Xatırladaq ki, əvvəllər ucqar dağ və sərhəd kəndlərinə məhsullar ticarətçi tərəfindən alınıb sərnişin avtobuslarında aparılırdısa, indi bu problem də aradan qaldırılmışdır. Bu həm istehsalçı, həm istehlakçı, həm də ticarətçi üçün olduqca əlverişlidir. Çünki istehsalçı məhsulun satışına, istehlakçı keyfiyyətli və münasib qiymətə məhsul almağa, ticarətçi isə əlavə daşınma xərci çəkməməyə maraqlıdır. Yerli məhsulların keyfiyyətli istehsalı, tanıdılması, saxlanılması və alıcılara çatdırılması məqsədilə həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini vermiş, qida məhsullarının satışı cari ilin ilk 8 ayında ötən ilin müvafiq dövrü ilə müqayisədə orta hesabla 30 faizədək artmışdır.

**Kərəm HƏSƏNOV**

**Hər bir ölkənin mədəniyyəti onun tarixi keçmişinə dayanan yaşam fəlsəfəsi üzərində qurulmuşdur. Həm qədim tariximiz, həm də bu tarixin zənginliyini özündə əks etdirən mədəniyyət nümunələrimiz Cənubi Qafqazın bu bölgəsinə acnəbilərin diqqətini hər zaman cəlb etmişdir. Elə buna görədir ki, üzərinə, ruhuna Azərbaycançılıq fəlsəfəsi həkk olunmuş incəsənət nümunələrimiz müxtəlif dövrlərdə bu və ya digər yollarla ölkəmizdən çıxarılaraq daşınmış, dünyanın fərqli muzeylərində "məhbus həyatı" yaşamağa məcbur edilmişdir. Bu yazıda dünya muzeylərinin zənginliyini artıran milli incəsənət nümunələrimizdən bəhs edəcək, bu sahədə həlli vacib olan bəzi məsələləri təhlil etməyə çalışacağıq.**

# "Tənha yer"in qərib sakinləri haqqında düşüncələr...

Dünyada məşhur muzeylər çoxdur. Bu məşhurluq həmin muzeylərin aid olduğu ölkələrin zəngin mədəniyyətə malik olması ilə deyil, orada toplanılan eksponatların çoxluğu və rəngarəngliyi ilə ölçülür. Yəni istənilən muzeydə digər xalqlara mənsubluğu ilə seçilən mədəni nümunələr sərgilənə bilər və bu fakt mövcuddur. Azərbaycana məxsus eksponatlar isə dünya muzeylərində həddən artıq çoxdur. Bütün bunlar bir tərəfdən zəngin mədəniyyətə malik olduğumuzu, digər tərəfdən isə tariximizə zaman-zaman biganə yanaşdığımızı göstərir. Tarixçi alimlərin dediyinə görə, təkcə Rusiyanın Ermitaj Muzeyində 300 min, Parisin Sen-Jermen Muzeyində 40 minə qədər Azərbaycana aid eksponat var. Təsəvvür edin ki, Ermitajdakı eksponatlarla Naxçıvan Dövlət Tarix Muzeyi həcmində (buradakı eksponat sayı 49 minə yaxındır) 6 muzey yaratmaq olardı! Bu nümunələrə İngiltərə, Fransa, Rusiya, ABŞ, Avstriya, İtaliya, Almaniya, Misir, Macarıstan, Gürcüstan və adını sadalamadığımız digər ölkələrin məşhur muzeylərindəki milli eksponatları da əlavə etsək, xalqımızın tarixinin bütün səhifələrini özündə əks etdirən nəhəng bir tarix və incəsənət ensiklopediyası yaranar. Görəsən, bu muzeylərdə milli mədəniyyətimizin zəngin qolunu təşkil edən, bəşər mədəniyyətinə mühüm töhfələr vermiş qədim Naxçıvana aid nə qədər nümunələr var?

Yaşı çox-çox qədimlərə gedib çıxan Naxçıvan diyarı həm tarixilik baxımından, həm də bəşər mədəniyyətinin ilkin sivilizasiya ocaqlarından biri kimi əvəzolunmaz coğrafi ərazilərdən biridir. Zəngin təbiəti, mühüm ticarət yolları üzərində yerləşməsi, deməli olar ki, burada bütün sahələrin inkişafına təkan vermişdir. Bu inkişaf həm müxtəlif sənətkarlıq nümunələrinin yaradılmasına, həm də səyyahların, tacirlərin bu yerlərə daha çox üz tutmasına səbəb olmuşdur. Deməli, buradan aparılmış maddi-mədəniyyət abidələri də az olmamışdır. Bunu Rusiyanın, Avropanın, həmçinin okeanın o tayındakı ölkələrin muzeylərində mövcud olan eksponatlar da təsdiq edir. İstərdik, mütəxəssislərin bu sahədə əldə etdikləri məlumatları oxucularımızın diqqətinə çatdıraq. Məsələn, hazırda ABŞ-ın Vaşinqton, Nyu-York, Çikaqo, Los-Angeles, Filadelfiya, Hyuston, San-Fransisko, Klivlend, Detroyt, Boston və başqa şəhərlərindəki muzey, bədii qalereya və şəxsi kolleksiyalarda xalqımıza aid yüzlərlə nadir sənət nümunələrimiz yer alır. Bunlara Nyu-Yorkda Piyerpont Morqanın şəxsi kolleksiyasında saxlanılan və XII-XIII əsrlərə aid edilən, Naxçıvanda düzəldilən bürünc qabı, Klivlend İncəsənət Muzeyində saxlanılan, yenə də XII əsrdə Naxçıvan ustaları tərəfindən düzəldilmiş bürünc məcməyini misal göstərmək olar. Bundan başqa, Parisin Dekorativ Sənətlər və Luvr muzeylərində müxtəlif bədii sənət nümunələrimiz var ki, bunlar içərisində Naxçıvanda toxunmuş yüksəkkeyfiyyətli parçalar və xalçalar mühüm yer tutur.

Dünyanın məşhur muzeylərindən sayılan Luvr Muzeyində bir neçə ədəd çox nadir sayılan gümüş, mis və bürüncdən düzəldilmiş bədii metal sənəti nümunələrimiz vardır. Bunlar içərisində bürüncdən düzəldilmiş 1190-cı il tarixli orijinal fiqurlu bir qab xüsusilə diqqəti cəlb edir. Bu sənət əsəri hazırda Luvr Muzeyinin Şərq incəsənətinə aid salonunda nümayiş etdirilir. Həmin bürünc qabın orijinallığı tək onun formasında deyil, həm də bəzəklərindədir. Döymə və cızma texniki üsulu ilə həkk olunmuş bu bəzəklər stilizə edilmiş nəbati ornament ünsürlərindən və yazı nümunələrindən ibarətdir. Bu yazıların birində onu düzəldən ustanın – Osman Salman oğlu Naxçıvaninin adı qeyd edilmişdir.

Aparılan tədqiqatlar göstərir ki, muxtar respublikamızdan, ümumiyyətlə isə ölkəmizdən aparılan mədəniyyət nümunələrinin böyük bir hissəsi Rusiya muzeylərində "mühafizə olunur". Bu muzeylər içərisində isə Sankt-Peterburqda yerləşən Dövlət Ermitaj Muzeyi xüsusi əhəmiyyətə malikdir.

İstər tələbəlik dövründə, istərsə də sonralar bu nəhəng mədəniyyət mərkəzini iki dəfə gəzmək imkanım olub. Onu deyim ki, Dövlət Ermitajı dünyanın ən nəhəng rəsm və mədəni-tarix muzeylərindən biridir. 5 bina, 350 zaldan ibarət muzeydə 3 milyona yaxın eksponat qorunur. Fransızcadan tərcüməsi "tənha yer" mənasını verən Ermitaj Muzeyində, yazının əvvəlində də qeyd etdiyimiz kimi, Azərbaycana aid 300 mindən artıq eksponat var. İnanılmazdır, ancaq faktdır ki, muzeyin eksponatlarının 10 faizini Azərbaycana aid nümunələr təşkil edir. Muzeyin Şərq incəsənəti şöbəsində İran, türk, Çin, yapon və ərəb xalqlarının maddi-mədəniyyəti ilə yanaşı, Azərbaycan xalqının da əsrlər boyu yaratdığı bir çox nadir sənət nümunələri nümayiş olunur. Ekspozisiya zallarında ən qədim dövrlərdən tutmuş XX əsrin əvvəlinədək Azərbaycan ustaları tərəfindən düzəldilən zərgərlik, saxsı qab nümunələri, daş, taxta üzərində oyulan sənət əsərləri və müxtəlifnövlü toxuculuq nümunələri var. Burada dahi Azərbaycan şairi Nizami Gəncəvinin "Xəmsə"sinin 1430-cu ildə üzü köçürülən nadir nüsxəsi, eyni zamanda 1542-ci ildə üzü köçürülən digər əlyazması, "Türkmənçay" müqaviləsinin orijinal surəti, Azərbaycanın nadir mədəni irsinə aid diametri 2,5 metr, çəkisi isə 2 ton olan tunc tiyan, sayı indiyədək bəlli olmayan milli xalçalarımız və sair nümayiş etdirilir. Muzeyin eksponatları içərisində XIX əsrin sonlarında Naxçıvandan tapılmış bir fiqur tamaşaçıların diqqətini daha çox cəlb edir. Bundan əlavə, Ordubad rayonunun Yuxarı Aza kəndindən tapılmış saxsı kasa, Xaraba Gilan yaşayış yerindən əldə edilmiş müxtəlifölçülü sikkələr, Naxçıvanın müxtəlif ərazilərindən tapılmış bir neçə daş kitabə, Azərbaycan xanlıqlarına aid müxtəlif rəmzi emblemlər muzeyin maraqlı eksponatlarından sayılır.

Nədənsə, bu fikir hər zaman düşüncəmə hakim kəsilir ki, Naxçıvan tarixinin 18-19-cu yüzilliklərə bağlı səhifələrinin yazılmasında Ermitajın materiallarından tam istifadə edə bilməmişik. Halbuki həmin dövrlərlə bağlı muzeydə kifayət qədər maddi materialların olması şübhəsizdir. Doğrudur, tələbə ikən bunun o qədər də fərqinə varmamışam. Ancaq məsələ ondan ibarətdir ki, istər çar Rusiyası dövründə, istərsə də sonrakı dövrlərdə Naxçıvan ərazisi daim diqqət mərkəzində olan region olub. Naxçıvan xanlığı, Kəngərlilər nəslinin zadəgan-hərbçi nümayəndələri ilə bağlı muzeydə qiymətli nümunələr vardır. Digər tərəfdən isə onu nəzərə alaq ki, Naxçıvanın o zamankı əsilzadə insanlarının böyük əksəriyyəti Peterburqda təhsil almış, fəaliyyətləri dövründə bu şəhərlə mühüm əlaqələri olmuşdur. Ermitajda kifayət qədər milli xalça nümunələrimiz var. Bu xalçaların bir qismində aid olduğu bölgəni bildirən yazılar olsa da, bu, bütün xalçalara aid deyil. Muzeyin Şərq incəsənəti şöbəsində Şirvanda, Qubada, Şamaxıda toxunmuş xalçalarla yanaşı, "Qafqaz", "İran" admənsubluğu ilə nümayiş etdirilən xalçalar çoxdur. Naxçıvan-Təbriz xalçaçılıq məktəbinin kifayət qədər geniş məkanda yayıldığını nəzərə alsaq, Naxçıvan xalçalarının muzeydə olmaması inandırıcı görünmür. Bu faktı arxeoloji və sənətkarlıq nümunələrinə də aid etmək olar.

Adıçəkilən muzeydə Naxçıvana aid zəngin materialların mövcudluğu ilə bağlı araşdırmaların aparılması tarixçilərimiz qarşısında mühüm məsələ kimi durmalıdır. Ancaq bu tədqiqatların aparılması göründüyü qədər də asan deyil.

Birinci ona görə ki, indiyədək AMEA-nın müvafiq institutları tərəfindən, eyni zamanda Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyi tərəfindən bir neçə dəfə Rusiyanın bəzi muzeylərinə müəllif hüquqlarının qorunması və eksponatların tədqiq edilməsi ilə bağlı müraciətlər olunsa da, müsbət nəticələr əldə edilməmişdir. Səbəbsə aydındır: bunlar bizim marağımızda olan məsələlərdir və illərlə müxtəlif adlar altında sərgilənən eksponatların hüquqlarını özünə qaytarmaq çətin prosesdir. Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, bu cür anlaşmalarda rəsmi protokol qaydaları ilə müqayisədə qarşılıqlı mədəni əlaqələrin intensivliyi daha çox ümidverici görünür. İki il bundan əvvəl Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin təşəbbüsü ilə Ermitajdakı Azərbaycan eksponatlarının ilk daimi sərgisinin təşkil edilməsi ilə bağlı niyyət protokolunun imzalanması dediklərimizin sübutudur.

Digər tərəfdən, Sankt-Peterburqla Naxçıvan arasında bəzən o qədər də sezilməyən müəyyən bağlar var. Hamımıza bəllidir ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin tələbəlik illəri bu şəhərdə keçib. Sonradan SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini kimi çox yüksək vəzifədə işlədiyi dövrlərdə Peterburqda (həmin dövrdə Leninqrad) bir çox böyük layihələrə imza atması ulu öndəri bu şəhərin sakinlərinə çox sevdirmişdi. Buna görə də peterburqlular bu dahi şəxsiyyəti doğmaları sayır, onun SSRİ rəhbərliyindən uzaqlaşdırılmasının günahını o zamankı rəhbərlikdə görür və bunu etiraf etməkdən də çəkinmirdilər. Bu təəssüf hissini paylaşanlar içərisində o zaman mənə dərs deyən müəllimlər də çox idi. Onlar Naxçıvanı, hər şeydən əvvəl, Heydər Əliyevin Vətəni kimi xatırlayırdılar.

***Beləliklə, Heydər Əliyev Fondunun son illərdə Rusiyada milli mədəniyyətimizin təbliği ilə bağlı həyata keçirdiyi tədbirlər, hər iki ölkə arasında mədəni əlaqələrin dərinləşən xətt üzrə inkişaf etməsi, Naxçıvanın getdikcə beynəlxalq tədbirlərə daha çox evsahibliyi etməsi və nəhayət, bu yurdun düzgün ideoloji təbliği, düşünürəm ki, gələcəkdə dahi rəhbər Heydər Əliyevin Vətəninin tarix səhifələrinə daha bir zənginlik qatacaq.***

Səbuhi HƏSƏNOV

# Üç fərqli quruluşun siyasət adamı olan diplomat



*Qasım bəy Abbasqulu bəy oğlu Camalbəyov – XX əsrin əvvəllərində siyasi və diplomatiya tarixində özünəməxsus xidmətləri olan diplomatlarımızdan biri. Qasım bəy Camalbəyovun həyatı və ictimai-siyasi fəaliyyəti də yaşadığı dövr kimi ziddiyyətli olmuşdur. Lakin özünün siyasi istedadı və fərdi diplomatik xüsusiyyətləri ilə Qasım bəy Camalbəyov həm Rusiya imperiyası dövründə, həm Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyəti illərində, həm də Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra ictimai-siyasi proseslərin mərkəzində yer almağı bacarmış, mövcud quruluş və ictimai-siyasi şəraitdən asılı olmayaraq, Azərbaycan uğrunda fəaliyyət göstərmişdir.*

Onun ictimai və siyasi diplomatik fəaliyyətində uğur qazanmasının başlıca səbəblərindən biri də təhsili ilə bağlı olmuşdur. Belə ki, 1881-ci ildə Naxçıvan şəhərində dünyaya göz açan Qasım bəyi atası Abbasqulu bəy 7 yaşında olarkən mədrəsəyə oxumağa göndərmiş, sonralar isə o, təhsilini Naxçıvanda Azərbaycan, rus və fars dillərində təlim verən "Məktəbi-tərbiyə"də davam etdirmişdir. Qeyd edək ki, 1894-cü ildə fəaliyyətə başlayan bu məktəb XX əsrin 30-cu illərinə qədər Naxçıvanda fəaliyyət göstərmiş və burada dövrün bir çox ziyalıları təhsil almışdır. Bu məktəbdə Məhəmməd Tağı Sidqidən dərs alan Qasım bəy türk və fars dillərinə mükəmməl yiyələnmiş, onun sonrakı dövr diplomatik fəaliyyətində bu dilləri mükəmməl bilməsi əhəmiyyətli rol oynamışdır. İki il bu məktəbdə təhsil aldıqdan sonra o, şəhər dördillik məktəbində təhsilini davam etdirmiş, 1901-ci ildə isə İrəvan Müəllimlər Seminariyasında imtahan verərək xalq müəllimi rütbəsi almışdır. 1901-1911-ci illərdə İrəvan quberniyasının müxtəlif kəndlərində müəllim işləyən Qasım bəy Camalbəyov elə bu dövrdən başlayaraq gizli siyasi fəaliyyətə qoşulur. 1905-1907-ci illərdə ermənilər tərəfindən azərbaycanlılara qarşı törədilən qətliamlarla əlaqədar olaraq Qasım bəy Camalbəyov Naxçıvana qayıdır. XX əsrin əvvəllərindən başlayaraq bütün Rusiya imperiyasında kütləvi surətdə yayılan sosial-demokrat ideyaları Qafqaza da yol tapır. Bəhs olunan dövrdə Qasım bəy Camalbəyov Naxçıvanda və Culfada yaradılan Rusiya Sosial Demokrat Fəhlə Partiyasının qurulmasında fəal iştirak edir və hətta bir müddət bu təşkilatda təftiş komissiyasının rəhbəri kimi fəaliyyət göstərir.

1912-ci ildə pedaqoji fəaliyyətdən uzaqlaşan Qasım bəy Camalbəyov fars dilini yaxşı bildiyinə görə Persiyanın (İranın) bir bankının Culfa şöbəsində tərcüməçi işləməyə başlayır, bir il sonra isə həmin bankın İran şəhərlərindən birində yerləşən şöbəsində fəaliyyətini davam etdirir. Lakin Qasım bəy Camalbəyovun siyasi fəaliyyəti ilə əlaqədar bankın Petroqraddakı idarəsindən verilən məlumat əsasında o, işdən azad olunur.

Özünə qarşı təhlükəni hiss edən Qasım bəy Camalbəyov gizli şəkildə Bakıya getmək istəyərkən həbs olunur və Krasnovodska sürgün edilir. Onun sürgündən sonrakı həyatından bəhs edən tədqiqatçılar qeyd edirlər ki, təzliklə sürgündən qaçmağı bacaran Qasım bəy Bakıya gəlir və Cəfər Axundov adlı bir şəxsin yardımı ilə "Rapid" mexanika zavodunda gizli surətdə yaşamağa başlayır.

Bir neçə ay Bakıda qeyri-leqal şəkildə yaşadıqdan sonra Qasım bəy Camalbəyov yenidən həbs olunur, lakin bu dəfə də həbsdən qaçaraq dəniz yolu ilə Həştərxana gedir, orada XX əsrdə Naxçıvan torpağının ölkəmizə bəxş etdiyi digər bir görkəmli diplomat İbrahim Əbilovu tapır və onun yanında sığınacaq əldə edir.

Azərbaycan Xalq Cümhuriyyətinin qurulmasından sonra isə Qasım bəy Camalbəyov əvvəlcə Tiflisdə fəaliyyət göstərən milli şuranın üzvlərindən biri, sonralar isə parlamentin deputatı olur. Milli hökumətin Gəncədəki fəaliyyəti zamanı da Q.Camalbəyov milli şuranın üzvü kimi fəaliyyət göstərmişdir. Çünki 1918-ci il iyun ayının 17-də qəbul olunmuş "Azərbaycan milli şurasının ikinci müvəqqəti hökumətin heyəti haqqında qərarı"nda milli şuranın digər üzvləri ilə bir sırada Qasım bəy Camalbəyovun da adı çəkilir.

1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sosialist fraksiyasında təmsil olunan Qasım bəy Camalbəyov parlamentin işində fəal iştirak etmiş, müəssislər məclisinin çağırılması üzrə mərkəzi komissiyanın üzvü olmuşdur. Qeyd edək ki, 1918-ci il dekabrın 7-də açılan Azərbaycan Xalq Cümhuriyyəti parlamentində sosialistlər 12 deputatla təmsil olunurdular. Onlar müsəlman sosialist fraksiyasını yaratmışdılar. Fraksiyaya digər solçu qruplarla yanaşı, sağ hümmətçilər – Səməd ağa Ağamalıoğlu, Əli Heydər Qarayev, İbrahim Əbilov (bir çox mənbələrdə onun soyadı Əbilzadə kimi göstərilir) və Qasım bəy Camalbəyov daxil idilər. Bəzi arxiv sənədlərindən məlum olur ki, parlamentin deputatı kimi fəaliyyət göstərdiyi illərdə Q.Camalbəyov Bakıda Qala-27 ünvanında yerləşən mənzildə yaşamışdır.

Azərbaycanda Sovet hakimiyyətinin qurulmasından sonra isə fars dilini mükəmməl bilməsi və əvvəllər bir müddət İranın müxtəlif şəhərlərində çalışması ilə əlaqədar olaraq, Qasım bəy Camalbəyov Təbriz şəhərində Naxçıvanın ilk konsulu kimi fəaliyyət göstərmişdir.

XX əsrin 30-cu illərinin repressiyası bu diplomatımızdan da yan keçməmiş, Qasım bəy Camalbəyov 9 yanvar 1938-ci ildə Bakıda qətlə yetirilmişdir.

Elnur KƏLBİZADƏ

Məmməd Araz – 80

# Məmməd Araz yaradıcılığında tərcümə

*Dünya xalqları ədəbiyyatının ən yaxşı nümunələrinin dilimizə tərcümə edilməsi həmişə təqdirəlayiq bir iş kimi dəyərləndirilmiş və dövrümüzə qədər bədii tərcümənin imkanlarından geniş şəkildə istifadə olunmuşdur. Müxtəlif ölkə nümayəndələrinin əsərlərini dilimizə tərcümə edərək xalqımızın bu qiymətli nümunələrdən yararlanmasına imkan yaradan sənətkarlardan biri də Xalq şairi Məmməd Arazdır. Məmməd Araz yaradıcılığının dərinliyi, çoxşaxəliliyi və özünəməxsusluğu hamıya məlumdur. Bu sənətkarın əsərlərindən Vətən qoxusu gəlir. Şair, tərcüməçi, publisist Məmməd Araz Azərbaycan ədəbiyyatının tanınan və sevilən sənətkarlarındandır. O, Vətənini, elini çox sevmiş və yaratdığı əsərlərdə bu mövzudan sevərək söhbət açmışdır. Ancaq o, dünya sənətkarlarının yaratdığı əsərlərlə də tanış olmuş, getdiyi bir çox ölkə haqqında öz əsərlərində qiymətli və lazımı məlumatlar vermişdir.*

İstər mədəni, istər siyasi, istərsə də ədəbi əlaqələrin yaradılmasında tərcümə işinin rolunu danmaq olmaz. Bu yolla millətlərin ortaq xüsusiyyətlərini üzə çıxarmaq daha asandır. Məmməd Arazın tərcümə işlərindəki məzmun və ifadələr özünəməxsusluğu ilə seçilir. Tərcüməçilik fəaliyyəti onun yaradıcılığını şaxələndirən bir faktordur. Şairin tərcümə etdiyi şeirlər və poemalar mövzu rəngarəngliyi ilə diqqət çəkir. Məmməd Arazın dünya ölkələrinin yaradıcılığında yer alan və bizimlə ortaqlıq təşkil edən mövzulardakı əsərlərin dilimizə tərcümə olunmaqla cəmiyyətimizi dünya ədəbiyyatı ilə daha yaxından tanış etməsi o dövr üçün çox böyük hadisədir. O, Qərb sənətkarları ilə yanaşı, Şərq sənətkarlarının da əsərlərini dilimizə tərcümə etmişdir. Məsələn, Qaraçay-Balkar şairi Qaysın Quliyevin "Dilçi alimə" şeri Məmməd Arazın tərcümələri arasındadır. Bu şeirdə bütün dünya xalqlarını maraqlandıran dil problemindən söhbət açılır. Dilçi alimə müraciətlə yazılan bu şeirdə dilini sevən və dilini qorumaq ümidiylə çırpınan bir insan təsvir olunmuşdur:

*Dilin öləcəyindən xeyli danışdın, amma*
*Bilmədin öz nitqinin adi mənasın sən.*
*Sənin üçün dil nədir? Fel, feli bağlama,*
*Mənim üçünsə həyatdır, həyatdır, bilirmisən?*

Məmməd Arazın tərcümələri arasında Qaysın Quliyevin "Arxalıq", "Mənim əcdadlarım", "Prometey", "Qurumuş çinarın nəğməsi", "Külək" və başqa şeirləri yer alır. Görünür, o, bu sənətkarın əsərlərinə xüsusi diqqətlə yanaşmışdır.

Məmməd Araz tanınmış qazax şairi, yazıçı-ədəbiyyatşünas Oljas Süleymenovun "Əmimin qəbri" şerini də dilimizə tərcümə etmişdir. Bu şeirdə bir uşağın vətən uğrunda cəsurluqla şəhid olmuş əmisindən və onun əmisi haqqında təəssüratlarından bəhs olunur. Həmin şeri oxuyarkən insanın gözünün önündə qanlı müharibənin səbəb olduğu fəlakətlər canlanır:

*Yadımdadır:*
*Uçuq evlər, aclıq, susuzluq,*
*Çapıb gedən qatarlardan baxan əsgərlər,*
*Yaralanmış torpaqlarda tank şırımları,*
*Ac dilənçini xatırladan vağzallar,*
*Yandırılmış kəndlər, saralmış ot yeyib köpən naxırlar...*

O, Ukrayna şairi, rəssam, mütəfəkkir, inqilabçı-demokrat, Ukrayna ədəbiyyatı və təsviri sənətində tənqidi realizmin və inqilabi-demokratik cərəyanın banisi T.Şevçenkonun "Su dənizə axdımı?", "Günəş isitməyir qərib ölkədə", " Ötür gecələr" şeirlərini dilimizə tərcümə etmişdir. Burada insanın dəyişkən təbiəti ilə bağlı bəzi psixoloji məsələlərə də toxunulmuşdur. Həmçinin bu şeirlərdə zəmanə ilə bağlı şikayətlər də yer alır. Bu da realist düşüncə tərzidir. Ədəbiyyat nəzəriyyəsində qeyd olunur ki, sənətkarın realist metodu əsas götürməklə bədii idrakı obyektiv varlıqla qidalandırması realist metoda uyğundur. Məmməd Arazın tərcümələrində istinilən xarici ədəbiyyatdakı realist düşüncələr olduğu kimi saxlanılmışdır.

Xalq şairinin tərcümələri içərisində Gürcüstanın xalq şairi Georgi Nikolayeviç Leonidzenin "Vətən nəğməsi" şeri də ədibin böyük tərcüməçilik bacarığından xəbər verir:

*Mən bütün eşqimi, ürək qanımı*
*Axıtdım şerimə, sözümə bu gün.*
*Doğma Vətənimi – doğma anamı*
*Könül atəşiylə vəsf etmək üçün.*

Rus poeziyasının görkəmli nümayədələri S.V.Mixalkovun "Foma", M.Svetlovun "Şeirlər", N.A.Nekrasovun "Rus qadınları" və dünya şairlərinin şeirlərindən ibarət olan "Ocaq başında" əsərlərini Məmməd Araz buradakı bədii ideyaları əslindən daha bitkin şəkildə dilimizə çevirmişdir. Mövcud olduğu quruluşun siyasi və sosial mahiyyətini, inanc və məişətini əks etdirən bu şeirlərin tərcüməsi ilə M.Araz Azərbaycan oxucusunu dünya ədəbiyyatına yaxınlaşdırmış, bu aləmlə tanış etmişdir. Böyük sənətkarın bədii tərcümələri sayəsində Azərbaycan oxucusu dünya ədəbiyyatının bir sıra nümunələri ilə tanış olmaq imkanı qazanmışdır. Eyni zamanda şairin əsərləri ayrı-ayrı xalqların dillərinə tərcümə edilərək nəşr olunmuşdur. Onun Moskvada nəşr olunan "Arazı oxuyuram – Poyu Araks" (1966), "Daş qartal – Kamennıy oryol" (Moskva, 1975) kimi şeir kitabları buna misal ola bilər .

Azərbaycan oxucusu Xalq şairi Məmməd Arazın tərcüməsində rus şairləri Lermontovun "Dəniz qulduru", Sergey Vasilyevin "Anna Denisovna", gürcü şairi Mixail Lukoninin "Şair və evlər müdiri" poemalarını ana dilində oxumaq imkanı qazanmışdır və bu tərcümələr sayəsində Qərb və Şərq dünyası ilə tanış olmuşdur.

Nəticə olaraq deyə bilərik ki, ümumən Məmməd Arazın tərcümə sənətinin ən üstün göstəricilərindən biri onun tərcümə zamanı milli dil imkanlarını hesabına istinilən tərcüməni oxucuya sevdirmək bacarığı idi. Təbii ki, bu prosesdə istinilən xalqın milli düşüncə tərzi, adət və məişəti diqqətə alınmışdır. Şeirlərin məna və ideyasını olduğu kimi təqdim edən şair Məmməd Araz böyüklüyünü bir daha təsdiq etmişdir.

**Nərgiz İSMAYILOVA**



# İdmana və idmançılara böyük dəstəyin ünvanı





***Naxçıvan Muxtar Respublikasında idmanın müxtəlif sahələrinin inkişafı daim diqqət mərkəzindədir. Muxtar respublikada bu sahənin inkişafına hərtərəfli şərait yaradılıb. Gənclərin asudə vaxtlarının səmərəli təşkili, həmçinin onların idman sahəsində uğur qazanmalarını təmin etmək məqsədilə Naxçıvanda bir çox idman zalları, komplekslər fəaliyyət göstərir. Onlardan biri də Naxçıvan şəhərində yerləşən İlham Əliyev adına Olimpiya İdman Kompleksidir. 10 ildən çoxdur, qapıları idmançıların üzünə daim açıq olan kompleksdə məşq etmək üçün hər cür şərait mövcuddur. Yaradılan şəraitlə yaxından tanış olmaq üçün idman kompleksinə yollandıq.***

### *10 illik fəaliyyətin nəticəsi*

İlham Əliyev adına Olimpiya İdman Kompleksi barədə çox söz demək olar. Səbəbi, bu qurumun son illərdə göstərdiyi fəaliyyət, Naxçıvanda idmanın inkişafına verdiyi töhfələrdir. Kompleksdə bir idmançının yetişməsi, uğur qazanması və püxtələşməsi üçün hər bir şərait var.

İlham Əliyev adına Olimpiya İdman Kompleksinin direktoru Ramin Talıbovla söhbətimizdə məlum oldu ki, 10 illik fəaliyyəti dövründə kompleks bir çox nailiyyətlərə imza atıb: "İlham Əliyev adına Olimpiya İdman Kompleksi 2002-ci ildən fəaliyyət göstərir. İdmançılarımız Olimpiya İdman Kompleksində güləş, boks, karate-do, taekvando, mini-futbol, basketbol, voleybol və digər idman növləri ilə məşğul olur, trenajor zallarından istifadə edirlər. 2004-cü ildə Üzgüçülük Mərkəzinin açılışı olub və burada da yüksək şərait yaradılıb".

### *Bu il də kompleksdə beynəlxalq turnirlər keçirilib*

Naxçıvan tez-tez beynəlxalq turnirlərə ev sahibliyi edir. Təbii ki, beynəlxalq turnirlərin keçirilməsi yalnız böyük komplekslərdə təşkil edilə bilər. Elə cari ilin ilk 6 ayında kompleks bir çox belə turnirlərə ev sahibliyi edib. Bu il kompleksdə yunan-Roma güləşi üzrə beynəlxalq yarış və qaydasız döyüş növü üzrə beynəlxalq turnir keçirilib.

Qeyd etdiyimiz kimi, kompleksdə idmanın bir çox növləri üzrə yüzlərlə gənc məşq edir. Bəs 10 illik fəaliyyəti dövründə kompleks daha hansı yeniliklərə imza atıb? Bu sualın cavabında kompleksin direktoru dedi ki, əvvəllər qızlardan ibarət qrup yox idi. 2004-cü ildə Üzgüçülük Mərkəzi fəaliyyətə başladı və qızlar qrupu yaradıldı. Bundan sonra İlham Əliyev adına Olimpiya İdman Kompleksində də qızların məşq etməsi üçün şərait yaradıldı və gimnastika üzrə qrup fəaliyyətə başladı.

* * *

Məlum olduğu kimi, "Araz-Naxçıvan" futbol komandası İlham Əliyev adına Olimpiya İdman Kompleksinin kateclərində məskunlaşıb.

Burada futbol komandası üçün lazımi şərait yaradılıb. Kompleksdəki bütün avadanlıqlar, məşq etmək üçün idman zalları futbolçuların ixtiyarına verilib.

Sonda Ramin Talıbov bütün bu şəraitin yaradılmasına görə dövlətimizə minnətdarlığını bildirərək dedi: "Bunların hamısı Naxçıvanda idmana göstərilən qayğının nəticəsidir. İdmanın inkişafına daim diqqət göstərilməsi nəticəsində indi bütün problemlər aradan qaldırılıb və idmanın inkişafı üçün yaradılan bu şəraitdən maksimum istifadə etməliyik".

**Ceyhun MƏMMƏDOV**

## Təmsilçilərimiz yarışa fəal başlayıblar

Sentyabrın 9-da Gürcüstanın Tbilisi şəhərində "Nona Qaprindaşvili CUP-2013" Beynəlxalq Şahmat Turnirinə start verilib.

Bu ayın 17-dək davam edəcək turnirdə muxtar respublikamızın şahmatçılarından Urfan Sevdimalıyev, Tural Zeynalov və Sadiq Məmmədov da mübarizəyə qoşulublar. Birinci turdan oyunlara fəal başlayan Urfan Sevdimalıyev Ermənistan şahmatçısını mat edib. Yarışda Tural Zeynalov beynəlxalq usta ilə heç-heçə etsə də, digər təmsilçimiz Sadiq Məmmədov rəqibinə qalib gəlib.

## Şahmat dərəcələri uğrunda yarış

Naxçıvan şəhərindəki Şahmat Mərkəzində şahmat üzrə ənənəvi təsnifat turniri keçirilib. Şahmatın təbliğində və şahmatçıların təsnifat dərəcəsinin artırılmasında mühüm rol oynayan yarışda 6 qrupda 100-ə yaxın idmançı iştirak edib. Sonda yarış iştirakçılarına müvafiq şahmat dərəcələri verilib.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Xəlilli kəndində yaşamış Nəcəfov Süleyman Musa oğlunun adına olan evin JN-082[A] inventar nömrəli, 10311028 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

### Allah rəhmət eləsin

AMEA Naxçıvan Bölməsinin Rəyasət Heyətinin üzvləri və Mərkəzi Aparatın əməkdaşları Bioresurslar İnstitutunun şöbə müdiri Rəşadət Əmirova, anası

**RUQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun direktoru Tariyel Talıbov və institutun kollektivi iş yoldaşları Rəşadət Əmirova, anası

**RUQİYYƏ XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasının kollektivi iş yoldaşları İsmət Rzayevaya, əzizi

**KAZIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və "Əcəmi" NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 3940. Sifariş № 825